AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA VERGİTUTMA

## Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergitutmanın xüsusiyyətləri

BAKI – 2026

## Naxçıvan Muxtar Respublikasının rezidentləri kimlərdir?

Naxçıvan Muxtar Respublikasında və ya mərkəzləşdirilmiş qaydada vergi uçotuna alınan və bilavasitə Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər.

## Naxçıvan Muxtar Respublikasının rezidentlərinə münasibətdə tətbiq edilən vergi azadolmaları hansılardır?

- **2026-cı il yanvarın 1-dən** etibarən **10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş** vergidən azaddırlar;
- hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirləri **2026-cı il yanvarın 1-dən** etibarən **10 il müddətində** vergidən azaddır.
- Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən sənaye parklarına münasibətdə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi, texnologiyalar parklarına münasibətdə isə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətli orqanın təsdiqedici sənədi əsasında istehsal, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə xammal və materialların idxalı **2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə ƏDV-dən azaddır.**
- İnvestisiya təşviqi sənədini almış Naxçıvan Muxtar Respublikasının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında istehsal və xidmətlərin göstərilməsi (işlərin görülməsi) məqsədilə xammal və materialların idxalı **2026-cı il yanvarın 1-dən** etibarən **10 il** müddətinə ƏDV-dən azaddır.
- Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye məhəllələrinin rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı **2026-cı il yanvarın 1-dən** etibarən **10 il** müddətinə ƏDV-dən azaddır.

## Məcburi dövlət sosial sığorta haqları

Naxçıvan Muxtar Respublikasının rezidenti olan, qeyri-dövlət sektoruna aid edilən və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin təsdiq etdiyi iqtisadi fəaliyyət növləri təsnifatına uyğun olaraq bilavasitə istehsal, o cümlədən emal və hasilat sahəsində (neft-qaz sahəsi istisna olmaqla) fəaliyyət göstərən sığortaedənlər tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqqının aşağıdakı hissəsi 01.01.2036-ci il tarixədək dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılır, yəni sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının həmin hissələri dövlət büdcəsinin vəsaiti hesabına kompensasiyası məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəyləri nəzərə alınmaqla Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən sığortaedənlərə (sığortaolunanlara) əvəzsiz maliyyə vəsaiti şəklində ödənilir:

- muzdlu işdən əldə edilən gəlirlər üzrə sığortaedən tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının:
    - 2026-cı il yanvarın 1-dən 2029-cu il yanvarın 1-dək – **100 faizi** miqdarında;
    - 2029-cu il yanvarın 1-dən 2032-ci il yanvarın 1-dək – **80 faizi** miqdarında;
    - 2032-ci il yanvarın 1-dən 2034-cü il yanvarın 1-dək – **60 faizi** miqdarında;
    - 2034-cü il yanvarın 1-dən 2036-cı il yanvarın 1-dək – **40 faizi** miqdarında.
- Naxçıvan Muxtar Respublikasının rezidenti olan və qeyri-dövlət sektoruna aid edilən (neft-qaz, maliyyə və avtonəqliyyat vasitələri ilə yük daşıma sahələrində fəaliyyət göstərən, eləcə də dövlət büdcəsinin

vəsaiti hesabına malları (işləri və xidmətləri) təqdim edən podratçılar (Naxçıvan Muxtar Respublikasında istehsal fəaliyyətini həyata keçirən rezident podratçılar istisna olmaqla) sığortaedənlər tərəfindən aşağıdakı ödənilən məcburi dövlət sosial sığorta haqları **2036-cı il yanvarın 1-dək** tam şəkildə dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılır:

- muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunan tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının – **100 faizi**;
- “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz” və ya “Fərqlənmə nişanı” əldə etməklə fəaliyyət göstərən fiziki şəxslər, mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyənlər istisna olmaqla) və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli (orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər və 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər istisna olmaqla, 15 yaşından “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər) ailə üzvlərinin hər biri tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının – **100 faizi.**

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.12.2023-cü il tarixli 445 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının subsidiyalaşdırılması hesabatın təqdim edilmə dövrü bitdiyi tarixdən, habelə “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz” və “Fərqlənmə nişanı” əldə etməklə fəaliyyət göstərən fiziki şəxslər üzrə rüb başa çatdıqdan sonra 45 (qırx beş) gün müddətində dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı **"Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş"** adlı bukletdən əldə edə bilərsiniz.

VEGİLƏRƏ AİD
NƏŞRLƏR

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az